# ŞƏHİDLİK ZİRVƏSİNƏ YÜKSƏLMİŞ QƏHRƏMANLAR!

*44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş igid vətən övladları ehtiramla anılır*











### Qaradağ

Respublikamızın hər yerində 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş igid övladlarımızın anım mərasimləri keçirilir. Azərbaycan silahlı qüvvələrinin hərbi qulluqçusu Şaiq Kəlbiyevin anım mərasimi keçirilib. Anım mərasimində Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, şəhidin ailə üzvləri, qazilər, YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, rayon icra hakimiyyəti başçısı aparatının məsul əməkdaşları və ictimaiyyətin nümayəndələri iştirak edib, qəbirüstü abidənin önünə gül dəstələri qoyulmuşdur. Tədbirdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra 30 noyabr 2021-ci ildə helikopter qəzasında şəhid olmuş Qaradağ sakini kapitan Əhmədxanov Ceyhun Xanlar oğlunun doğum günü ilə əlaqədar Qaradağ Rayon İcra Hakimiyyətinin başçısının rəhbərliyi ilə bir qrup icra hakimiyyətinin əməkdaşları, şəhidin ailə üzvləri və Sərhəd Qoşunlarının hərbi qulluqçuları tərəfindən ikinci Fəxri Xiyaban ziyarət edilmiş, qəbirüstü abidəsi önünə gül dəstələri qoyulmuşdur. Şəhid ailələrinin ailə üzvləri çıxış edərək onunla bağlı xatirələrini bölüşüb, şərəfli həyat və döyüş yolundan söz açıblar. Çıxış edənlər şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

### Göygöl

Göygöl rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev, YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, qazilər və şəhidin ailə üzvləri Vətən müharibəsində xüsusi qəhrəmanlıqla döyüşərək şəhidlik zirvəsinə ucalmış Elbrus Hüseynovun Göygöl şəhər Şəhidlər Xiyabanındakı məzarını ziyarət etmişlər.

Ziyarət zamanı şəhidin məzarı üzərinə gül dəstələri düzülüb, müqəddəs ruhuna dualar oxunmuşdur. Sonra şəhidin ailə üzvləri ilə evlərində görüşülüb, onların qayğıları ilə maraqlanılıb. Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev şəhid ailələrinə göstərilən yüksək dövlət qayğısından danışaraq şəhidlərimizin daim hörmətlə və ehtiramla yad edildiyini, onların gələcək nəsillərə örnək olduğunu söyləmiş, YAP Göygöl rayon təşkilatı tərəfindən hazırlanmış xatirə hədiyyəsi şəhidin ailə üzvünə təqdim olunmuşdur. Söhbət zamanı şəhidin ailə üzvləri onlara göstərilən xüsusi diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

### Yasamal

Yasamal rayon icra hakimiyyətinin başçısı Elşad Həsənov, Abşeron rayon icra hakimiyyətinin başçısı Abdin Fərzəliyev, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev, Yasamal rayon icra hakimiyyətinin və Abşeron rayon icra hakimiyyətinin məsul əməkdaşları, şəhidlərin ailə üzvləri, yaxınları, qazilər, Vətən müharibəsi iştirakçıları və Yasamal rayon ictimaiyyəti tərəfindən İkinci Fəxri Xiyabanda 44 günlük Vətən müharibəsi şəhidləri Məhərrəmov İsa Məhərrəm oğlunun və çavuş Müslümov Elşən Habil oğlunun məzarları ziyarət olunaraq gül dəstələri düzülüb, ruhlarına dualar oxunub. Şəhidlərin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən şəhid Məhərrəmov İsa Məhərrəm oğlu ölümündən sonra "Vətən uğrunda" və "Füzuli azad olunmasına görə" medalları ilə, şəhid Müslümov Elşən Habil oğlu isə ölümündən sonra "Vətən uğrunda" və"Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Allah şəhidlərimizə rəhmət eləsin!**